**Bakı Xəbər**. - 2024. - 5 dekabr. - № 221. - S. 4.

# Azərbaycanın COP29 uğuru növbəti COP uğuruna səbəb oldu – yeni sədrlik etimadı...

**Sadıq Qarayev:** “Azərbaycana göstərilən növbəti etimad BMT-nin COP29 tədbirinə ölkəmizin uğurla ev sahibliyi etməsinin dünya tərəfindən birmənalı olaraq qəbul edildiyinin təsdiqidir”

**İradə Sarıyeva**

**Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi etməsi, tədbir çərçivəsində əldə edilən nailiyyətlər, uğurlu nəticələr ölkəmizə növbəti etimadların göstərilməsini şərtləndirib. Belə ki, 2-13 dekabr 2024-cü il tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilməkdə olan BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı (COP16) çərçivəsində Azərbaycan Respublikası yekdilliklə təmsil olunduğu Mərkəzi və Şərqi Avropa regional qrupuna iki il müddətinə sədr və COP16 Bürosuna üzv seçilib.**

XİN-dən verilən məlumata görə, sədrlik dövründə ölkəmiz həmçinin qurumun Tərəflər Konfransının vitse-prezidentliyini də həyata keçirəcək.

Qrupa Azərbaycan Respublikası ilə bərabər 15 Şərqi və Mərkəzi Avropa dövləti daxildir.

2001-ci ildə COP5 çərçivəsində təsis edilmiş UNCCD-nin Şərqi və Mərkəzi Avropa qrupunun Regional Fəaliyyət Proqramı 2015-ci ildə təsdiqlənib. Qrup çərçivəsində regional fəaliyyətin gücləndirilməsi, biliklərin artırılması, ekoloji kənd təsərrüfatı və s. prioritet sahələr müəyyən olunub.

12 regionun təmsil olunduğu COP16 Bürosunun əsas vəzifələri COP qərarlarının həyata keçirilməsinə nəzarətin və gələcək COP iclasları üzrə işlərin təşkilidir. COP Bürosu həmçinin COP sessiyaları arasında həyata keçirilən öhdəliklərin icrasına nəzarət edir.

“Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki...”

Elm və Təhsil Nazirliyi Botanika İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent, ekspert Sadıq Qarayev “Bakı-Xəbər”ə bildirdi ki, Azərbaycana növbəti etimadın göstərilməsi çox müsbət göstəricidir və dövlətimiz bu etimada layiq olduğunu indiyə qədər həyata keçirdiyi bütün uğurlu işlərlə, başlıcası isə COP29-a ev sahibliyi etməklə bir daha dünyaya sübut edib. “Azərbaycanın Mərkəzi və Şərqi Avropa regional qrupuna iki il müddətinə sədr və COP16 Bürosuna üzv seçilməsi çox müsbət göstəricidir. Buna əsas olacaq səbəblərdən biri odur ki, Azərbaycan COP29 kimi mötəbər beynəlxalq bir tədbirə yüksək səviyyədə ev sahibliyi etdi, bununla da COP tarixində ortaya bir nümunə qoydu. Bir sıra xarici mərkəzlərin, qüvvələrin, bəlli təşkilatların Azərbaycanın ev sahibliyi ilə keçirilən bu tədbirin üstünə kölgə salmaq cəhdləri puça çıxdı. Bu tədbir COP tarixində mühüm rol oynadı. Ona görə ki, tədbirdə inkişaf etməkdə olan kiçik dövlətlərə inkişaf etmiş ölkələrin yardım etməsi məsələsi qaldırıldı və dövlətimizin, şəxsən cənab Prezidentin səyləri, təşəbbüsləri nəticəsində çox çətinliklə də olsa yüksək miqdarda vəsait ayrılmasına nail olundu.

COP tarixində həlli mümkün olmayan bir sıra məsələlər Bakıda çözüldü və həllini tapdı. Bütün bunlar iqlim dəyişmələrinin, eyni zamanda antropogen amillərin təsiri ilə biomüxtəlifliyin, meşələrin, floranın, təbiıətin qorunması, ekoloji mühitin, tarazlığın saxlanılması istiqamətində Azərbaycanın həm siyasətdə, həm də praktikada həyata keçirdiyi işlərin nəticəsidir. COP29-da Brazilya nümayəndəsi dünyaya çağırış etdi ki, Brazilya meşələri, Amazon quruyur. Siz də bilirsiz ki, Amazon meşələri sahəsinə görə 480 milyon hektar olmaqla Rusiyadan sonra dünyada ikinci yerdədir. Bu meşələr iqlim dəyişmələrinin təsirindən quruyur. Yəni real hadisədir. Bu, baş verən iqlim dəyişmələrindən dünyanın ikinci böyük meşələrinin quruması deməkdir və bu çağırış Bakıdan dünyaya çatdırıldı. Yeri gəlmişkən qeyd edim ki, Brazilya flora və biomüxtəlifliyinə görə dünyada birinci yeri tutur. Orada 40 minə yaxın bitki növü var. Müqayisə üçün deyim ki, təkcə ümumi Qafqazda 6 minə yaxın bitki növü var. Dünyanın 6 böyük flora vilayəti var, onlardan biri Kap flora vilayətidir ki, Şimali Afrikanı əhatə edir. Orada beş min növ var. Sadəcə, orda növ müxtəlifliyi çox olduğu üçün oranı ayrıca bir flora vilayət kimi götürüblər.

Dünyanın meşə sahəsi 4 milyard hektardır. 200 il əvvəl bu iki dəfə çox olub. Yəni son 200 ildə dünya meşələri iki dəfə azalıb. Azərbaycanın meşələri təxminən 12 faiz təşkil edir. Bir insana 0, 2 hektar meşə sahəsi düşür. Halbuki, XVIII-XIX əsrdə Azərbaycanın meşə sahəsi 30-35 faiz olub. İndi qonşu Gürcüstanda meşə sahəsi 30-35, Rusiyada 44 faizdir. Yəni Azərbaycanın meşə sahəsi az olduğu üçün bu əsaslarla dövlət

haqlı olaraq, məntiqə uyğun, qabaqcadan planlaşdırılmış şəkildə meşələrin, biomüxtəlifliyin qorunması istiqamətində tədbirlər görür, meşə qoruqları, yasaqlıqlar, milli parklar yaradır. Bütün bunlar dünyanın gözünün qarşısında baş verir və iqlim dəyişmələrinin təsirlərinə qarşı mübarizəmizi, bununla bağlı biomüxtılifliyi, ekoloji tarazlığı qorumaq üçün atdığımız addımları dünya görür. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Mərkəzi və Şərqi Avropa regional qrupuna iki il müddətinə sədr və COP16 Bürosuna üzv seçilib. Azərbaycana göstərilən növbəti etimad BMT-nin COP29 tədbirinə ölkəmizin uğurla ev sahibliyi etməsinin dünya tərəfindən birmənalı olaraq qəbul edildiyinin təsdiqidir. Bütün dünya qəbul etdi və təsdiqlədi ki, Azərbaycan COP29-a yüksək səviyyədə ev sahibliyi edib və bu səbəbdən də ölkəmiz Mərkəzi və Şərqi Avropa regional qrupuna iki il müddətinə sədr seçildi”.

S.Qarayev əlavə etdi ki, BMT-nin apardığı tədiqiqatlar nəticəsində hər il dünyada 6 milyon hektara yaxın torpaq eroziyaya uğrayır, yəni əkinə yararlı sahə əkinə yararsız sahəyə çevrilir:“Dünyada 4 milyard hektar meşə sahəsi var, amma çox acınacaqlı haldır ki, həm iqlim dəyişmələri nəticəsində, həm antropogen amillər səbəbindən hər il 10 milyon hektar meşə məhv olur. Müqayisə üçün deyim ki, Azərbaycanın meşə sahəsi 1 milyon hektardan bir az artıqdır. Təsəvvür edin ki, dünyada Azərbaycanın meşə sahəsindən 8 dəfə artıq meşə məhv olur, 6 milyon hektara yaxın əkinə yararlı sahə müxtəlif səbəblərdən erroziyaya uğrayır.

Azərbaycan dövlətinin bu yöndə apardığı siyasəti, qoruqların, yasaqlıqlarının sayının artrmasını və eyni zamanda işğaldan azad olunmuş ərazilərdə apardığı yaşıllaşdırma, üzümçülüyün bərpası işlərini və sairi dünya görür və bunların əsasında o qərarları verir. Təsəvvür edin ki, həm dünyada bizim gördüyümüz işlər təqdir olunur, dəstəklənir, buna görə Azərbaycana etimad göstərilir, həm də bizə qarşı qarayaxma kampaniyası aparılır, COP29-u boykot etmək yönündə çalışanlar vardı. Sonuncuların cəhdləri alınmadı. Amma dünyanın gerçək elm və siyasət adamları görürlər ki, Azərbaycan dövlətinin torpağın eroziyasının, su mənbələrinin çirklənməsinin qarşısının alıması, transmilli su hövzələrindən istifadə məsələsində, biomüxtəlifliyin, ekoloji tarazlığın qorunması yönündə apardığı siyasət real nəticələr verir, işğal dövründə yaşıllığa, biomüxtəlifliyə vurulmuş ziyan aradan qaldırılır, ona görə də belə müsbət qərar veriblər”.